XƏZƏRİM

Sinən bir ağ gümüşdü, gümüşdü,
Gözüm hüsnünə düşdü, nə düşdü.
Sahilində işıqlar qızıldı,
Yel dəydi, göy köynəyin sızıldı.
Suların çin-çin oldu, Xəzərim,
Ləpən göyərçin oldu, Xəzərim.

Demə, qoca Narginim qaladı,
Dəniz meşəsində o, taladı.
Mayakların qızarır nar kimi,
Sinən necə soyuqdur qar kimi.
Ağ dalğan ağ ayıdır, Xəzərim,
Hər ləpən qağayıdır, Xəzərim.

Ürəyimdə söz yatır suyunca,
Dinlə məni, dinlə sən doyunca.
Sularına mirvari düz ki, sən,
Paytaxtımın hüsnünə güzgüsən.
Dodaqların duzludur, Xəzərim,
Göylərin ulduzudur, Xəzərim.

Söylə görüm, ay dəniz, ay dəniz,
Çimibmi göy sinəndə Ay, dəniz?
Ulduzlar xalınmıdır gecələr,
Dalğalar yalınmıdır gecələr?
Saf qoynuna düşübdür güzərim,
Xəzərim, ay Xəzərim, Xəzərim...

BİZİM DAĞLARDA

Ay ellər, min zinət gördüm,
Bizim dağlarda, dağlarda.
Bir səfalı ömür sürdüm,
Bizim dağlarda, dağlarda.

Yurdumun şah vüqarı var.
Daşkəsəni, Qoşqarı var.
Babaların ilqarı var,
Bizim dağlarda, dağlarda.

Gələr yayda qonaqları
Məskən edər yaylaqları.
Daşar Narzan bulaqları,
Bizim dağlarda, dağlarda.

Dan yerini oyatmışam,
Dağlar deyə yaratmışam.
Mən İslamam, boy atmışam,
Bizim dağlarda, dağlarda.

SƏMƏNİ

Havada sazaq var, havada şaxta,
Mənsə düşünürəm ilk bahar haqda.
Anamın qoyduğu bir göy səməni,
Bahardan yazmağa çağırır məni.

Baxıram, baxıram göy səməniyə,
Dönür nəzərimdə yaşıl zəmiyə.
...Odur, dan sökülür, nur səpələnir,
Gözümdə zəmidir, hey ləpələnir...

Sevgilim toplayır əlvan gül-çiçək,
Çiçəkdən-çiçəyə qonur kəpənək.
Gülür kol dibindən bənövşə, nərgiz,
Baharla qol-qola yeriyirik biz.

Deyirəm, bizimlə gül, gəz, baharım!
Baxıb xumarlanır gülgəz baharım...
Bu vaxt sərt küləyin boz qanadları
Geniş pəncərəmə sovurur qarı –
Duyuram, xəyalmış aparan məni,
Qarşımda bir kağız, bir göy səməni...

İSTİSU

Dəlidağın ətəyində göz açan,
Kəlbəcərdə ləpir salıb, iz açan.
Min məclisdə söhbət açan, söz açan,
Ələsgərtək nüfuzlusan, İstisu.
Nə dadlısan, nə düzlusan, İstisu.

"Gəlin qaya", "Əsmər bulaq", göy çəmən,
Qız-gəlinin geyib gəzir göy kətan.
Sazlı-sözlü qonaq gəlir Göyçədən,
Sən ondan da avazlısan, İstisu,
Nə dadlısan, nə duzlusan, İstisu.

Çaxan şimşək buludunun gülüşü,
Tərtər çayın kəmərindir – gümüşü.
Tamaşadır min çadırlı dağ döşü,
Sən söhbətli, sən sazlısan, İstisu,
Nə dadlısan, nə duzlusan, İstisu.

ABŞERON

Bakı işıqlarla alışan kimi,
Parlayır döşündə bir nişan kimi.
Sahil qəndilləri kəhkəşan kimi,
Hüsnünü daima bəzər, Abşeron,
Mavi ətəyindir Xəzər, Abşeron!

Sulara sinə gər, minbir vüqarla,
Fəxr et, Bakı kimi gözəl diyarla.
Sabaha yürüş var, qalx iftixarla,
Yarış cərgəsinə düzül, Abşeron,
Ey qızıl ürəkli, qızıl Abşeron!...

BƏRDƏ

Baxıb cəlalına xəyala daldım,
Şeir rübabımı eşqinlə çaldım.
Hər xoş mənzərəndən bir ilham aldım,
Bahar xalısını sərəndə, Bərdə.

Sinən yağılardan min yara almış,
Nizami eşqinlə hey qələm çalmış.
Fateh İskəndəri kəməndə salmış,
Nüşabə zülfünü hörəndə, Bərdə.

Demirəm, duruşun bənzər ceyrana,
Doğma bir övladsan Azərbaycana.
İslamın xəyalı gəldi cövlana,
İlk dəfə hüsnünü görəndə, Bərdə.

MƏRƏZƏ

Yol üstündə gül kimi
Bitmisən ay Mərəzə.
Demə, nəzərimizdən
İtmisən, ay Mərəzə.

Sübh çağı, səhər erkən,
Maşınla keçəndə mən,
Bir torağay olub sən
Ötmüsən, ay Mərəzə.

Nə qəm yeyib, nə inlə,
Məni ürəklə dinlə.
Yol gedəndə mənimlə,
Getmisən, ay Mərəzə.

Nə deyim bu halına,
Aşiqəm cəlalına.
İslam tək vüsalına
Yetmisən, ay Mərəzə.

SURAXANI

Deməyin ki, şair gəldi,
Bu büsatı heç görmədi,
Suraxanı Abşeronun
Gözlərində bir sürmədir.

* * *

Boz qumsallı bu yerlərdə
Ağac, budaq olmasa da,
Buruqların sıx meşəsi
Şamlıqları salır yada.

* * *

Gecə-gündüz yorulmadan
Enib qalxır mancanaqlar.
Bu görünüş, bu mənzərə
Hər gecəni yoldan saxlar.

* * *

Yaraşıqlı ağ binalar,
Cərgə-cərgə düzüldükcə,
Suraxanı işığından
Min nur alır zülmət gecə.

* * *

Qara qızıl yer altından
Min illərdir axmadadır.
Sanmayın ki, babalarım
Yenə zülmət daxmadadır.

* * *

Yox, işıqlı bir sabaha
Gedir gözəl paytaxtımız.
Gülür sonsuz bir sevinclə,
Öz eşqimiz, öz bəxtimiz.

* * *

Atəşgahlar yeri bilib,
Hamı gəlmiş bu diyara.
Düşünürəm dərin-dərin,
Bu gün hara, o gün hara!

* * *

Ağır dəvə karvanları
Keçib susuz səhraları,
Ziyarətə axıb gəlmiş
Bu müqəddəs yerə sarı.

* * *

Hind elindən karvan-karvan,
Dəstə-dəstə, qatar-qatar,
Bu məbədə, atəşgaha
Axıb gəlmiş min bir zəvvar.

* * *

Suraxanı möcüzə tək,
Od paylamış gələnlərə.
Sanki burdan atəş alıb,
Öz yurduna dönmüş hərə.

Nə qəm yeyib, nə inlə,
Məni ürəklə dinlə.
Yol gedəndə mənimlə,
Getmisən, ay Mərəzə.

Nə deyim bu halına,
Aşiqəm cəlalına.
İslam tək vüsalına
Yetmisən, ay Mərəzə.

SURAXANI

Deməyin ki, şair gəldi,
Bu büsatı heç görmədi,
Suraxanı Abşeronun
Gözlərində bir sürmədir.

* * *

Boz qumsallı bu yerlərdə
Ağac, budaq olmasa da,
Buruqların sıx meşəsi
Şamlıqları salır yada.

* * *

Gecə-gündüz yorulmadan
Enib qalxır mancanaqlar.
Bu görünüş, bu mənzərə
Hər gecəni yoldan saxlar.

* * *

Yaraşıqlı ağ binalar,
Cərgə-cərgə düzüldükcə,
Suraxanı işığından
Min nur alır zülmət gecə.

* * *

Qara qızıl yer altından
Min illərdir axmadadır.
Sanmayın ki, babalarım
Yenə zülmət daxmadadır.

* * *

Yox, işıqlı bir sabaha
Gedir gözəl paytaxtımız.
Gülür sonsuz bir sevinclə,
Öz eşqimiz, öz bəxtimiz.

* * *

Atəşgahlar yeri bilib,
Hamı gəlmiş bu diyara.
Düşünürəm dərin-dərin,
Bu gün hara, o gün hara!

* * *

Ağır dəvə karvanları
Keçib susuz səhraları,
Ziyarətə axıb gəlmiş
Bu müqəddəs yerə sarı.

* * *

Hind elindən karvan-karvan,
Dəstə-dəstə, qatar-qatar,
Bu məbədə, atəşgaha
Axıb gəlmiş min bir zəvvar.

* * *

Suraxanı möcüzə tək,
Od paylamış gələnlərə.
Sanki burdan atəş alıb,
Öz yurduna dönmüş hərə.

* * *

Mənim ulu babalarım,
Tanrılarla oynamışdır.
Bu torpağın altındasa
Bakı nefti qaynamışdır.

* * *

Bəli, qızıl Bakı nefti,
Yer altından çıxdı üzə.
Abşeronum bu işıqdan
Şölə yaydı gözümüzə.

* * *

İndi uzaq Hindistandan
Bizə qonaq gəlir yenə.
Onları mərd Suraxanı
Vaqif edir öz sirrinə.

* * *

Nə əfsanə, nə ziyarət,
Cəzb etməyir əsla onu.
Bir hörmətlə salamlayır,
Hamı bizim od yurdunu.

* * *

Suraxanı, – neft bulağı,
Sürməlidir gözün sənin.
Hər diyarda, hər ölkədə
Gəzəcəkdir sözü sənin.

"AĞ ÇAY", "QARA ÇAY"

İki çay süzülüb axır yanaşı,
Dalğalı bir nəhrin qolları kimi.
Uzaqdan bozarır çaylağın daşı,
Toz basmış qoşa dağ yolları kimi.

"Ağ çay" ağ köpüklü, ağ ləpəlidir,
Axır ağ çiçəklər səltənətinə.
"Qara çay" burulub qapqara gedir,
Rəngi də bənzəyir təbiətinə.

Bizim dünya görmüş babalar sənin,
"Qara çay" adına dedikcə qara,
Suyundan içməmiş obalar sənin,
Ahın duman olub qalxmış dağlara.

Qara rəng heç kəsə indi ar deyil,
Ax, süzül dağların yaşıl döşündən.
İndi sən gördüyün dövranlar deyil,
Şikayət eyləmə öz keçmişindən.

Səni döndərmişəm öz əllərimlə,
Tökül Niaqara şəlaləsi tək.
Bu gün yandırdığın nurlu çıraqlar,
Alışır Qubanın dağ laləsi tək.

İndi, ay "Qara çay", oynaq suların,
Neçə dağ kəndində işıq yandırır,
Qubada sevimli əkinçilərin,
Təzə mənzilini işıqlandırır.

"Qara çay", "Ağ çaya" şəfəq payla sən,
Oyan günəşlə sən, uyu ayla sən.
Qoy çıxıb Şah dağın zirvələrinə,
Şərimi ellərə deyim ürəkdən:
– İndi qərq olmusan işıqlara, çay,
"Qara çay", ay "Qara çay"!..

QUBANIN AĞ ALMASI

Qələmələr gümüşü,
Yollar isə dolayı.
Heç şey gözə dəyməyir.
Bağ-bağatdan savayı.

Ağaclar cərgə-cərgə.
Meyvəsi ulduz sanı.
Almaların şah ətri
Məst eləyir insanı.
Dodağıma toxunur
Çarpaz budaq alması.
Ürəyimdən səs gəlir:
Qubanın ağ alması!..

Qubada qızıl payız
Fəsillərin şahıdır.
Üfüqdən keçən bulud
Ulduzların ahıdır.
Çünki, səyyarələr də
Parıldamır bu qədər...
– Gözəl qız, fikrə getmə,
Səbəti al, alma dər.
Bil ki, bu almadadır.
Hər dərdin sağalması,
Əllərin tək ağarır.
Qubanın ağ alması.

Şair, baxma ağaca
Bir alma da qalmadı.
Yanağından boylanan
Ondan da şux almadı.
Qızıl ala rəngi var,
Ah, necə də qoşadır,
Qaşların da budaq tək
Çatılıb, baş-başadır.
Qız, "yox".. demək istədi.
Dedim: – Dinlə, qadası,
Zəhmətinin barıdır
Qubanın ağ alması!..

BİLGƏH BAĞLARI

"Varəncil" sovuşur, üzüm morlanır,
Qara tut tökülür, bağda xarlanır.
Xallı şamamalar tağında yanır.
Sevgilim, gəl dolan bircə, bağları,
Yolunu gözləyir Bilgəh bağları.

Günəş öz odunu çiləyir quma,
Meynələr üzünü söykəyir quma.
"Xəzri" salxımları bələyir quma,
Sevgilim, gəl dolan bircə, bağları,
Yolunu gözləyir Bilgəh bağları.

Qumu mirvaridi, şəfəqi zərdi,
Mehi "gilavardır", şehi Xəzərdir.
Yazı da, yayı da, inan, gözəldir,
Gəl gəzək əncirli cərgə bağları,
Yolunu gözləyir Bilgəh bağları.

ŞƏRUR DÜZLƏRİ

Arazüstə diyarımın,
"Şərur" adlı elindəyəm.

Arpa çayı axıb keçir,
Mən qayələr selindəyəm.

Naxçıvanın Şəruru var,
Şərurun öz qüruru var.

Yağılara gərdi sinə,
Hər qarışı keçilməzdi.

Əhsən dedi – Ağrı dağı,
Şərur düşmənləri əzdi.

Ağaclar cərgə-cərgə.
Meyvəsi ulduz sanı.
Almaların şah ətri
Məst eləyir insanı.
Dodağıma toxunur
Çarpaz budaq alması.
Ürəyimdən səs gəlir:
Qubanın ağ alması!..

Qubada qızıl payız
Fəsillərin şahıdır.
Üfüqdən keçən bulud
Ulduzların ahıdır.
Çünki, səyyarələr də
Parıldamır bu qədər...
– Gözəl qız, fikrə getmə,
Səbəti al, alma dər.
Bil ki, bu almadadır.
Hər dərdin sağalması,
Əllərin tək ağarır.
Qubanın ağ alması.

Şair, baxma ağaca
Bir alma da qalmadı.
Yanağından boylanan
Ondan da şux almadı.
Qızıl ala rəngi var,
Ah, necə də qoşadır,
Qaşların da budaq tək
Çatılıb, baş-başadır.
Qız, "yox".. demək istədi.
Dedim: – Dinlə, qadası,
Zəhmətinin barıdır
Qubanın ağ alması!..

BİLGƏH BAĞLARI

"Varəncil" sovuşur, üzüm morlanır,
Qara tut tökülür, bağda xarlanır.
Xallı şamamalar tağında yanır.
Sevgilim, gəl dolan bircə, bağları,
Yolunu gözləyir Bilgəh bağları.

Günəş öz odunu çiləyir quma,
Meynələr üzünü söykəyir quma.
"Xəzri" salxımları bələyir quma,
Sevgilim, gəl dolan bircə, bağları,
Yolunu gözləyir Bilgəh bağları.

Qumu mirvaridi, şəfəqi zərdi,
Mehi "gilavardır", şehi Xəzərdir.
Yazı da, yayı da, inan, gözəldir,
Gəl gəzək əncirli cərgə bağları,
Yolunu gözləyir Bilgəh bağları.

ŞƏRUR DÜZLƏRİ

Arazüstə diyarımın,
"Şərur" adlı elindəyəm.

Arpa çayı axıb keçir,
Mən qayələr selindəyəm.

Naxçıvanın Şərurü var,
Şərurun öz qüruru var.

Yağılara gərdi sinə,
Hər qarışı keçilməzdi.

Əhsən dedi – Ağrı dağı,
Şərur düşmənləri əzdi.

Naxçıvanın Şəruru var,
Şərurun öz qüruru var.

Azərbaycan torpağının,
Bərəkətli guşəsisən.

Şərqin polad qapısında,
Azərimin gur səsisən.

Naxçıvanın Şəruru var,
Şərurun öz qüruru var.

MASALLI

Talış dağlarından meh əsir sərin,
Qayalar sıldırım, dərələr dərin.
Baxdıqca insanı alıb aparır
Əyri olayların, hamar düzlərin.

Sevdim yaz ayını, payız ayını,
Gördüm karvan-karvan düyü tayını.
Dola belimizə öz əllərinlə
Gümüş kəmər kimi "Viləş çayını".

Qoynunu dərəli, təpəli gördüm,
Qızıl sünbülünü ləpəli gördüm.
Əhdi, sədaqəti, dəyanəti mən
Ana torpağından öpəli gördüm.

Uzanıb getdikcə tər biçənəklər,
Otlayır quzular, atlar, inəklər.
Bir az yuxarıya düşür yolumuz
Bizə gəl-gəl deyir körpə tənəklər.

Tütünçü qız-gəlin səhərdən budur,
Vurhay yarpaq dərir, yarpaq qurudur.
Car çəkib kükrəyən kür kəhrizlərin
Elə bil dağların buzlu suyudur.

Seyri nəyə dəyər kiçik kol-kosun?
Min bir palıdın var, gövdəsi yosun.
Sənə həyat verən mərd oğulların,
Görüm palıd kimi əyilməz olsun!

Ovçu bərədədir, tazı gözləyir,
Ördəyi hürküdüb, qazı gözləyir.
Çöldə iynə-iynə çıxan taxıllar
Qardan yorğan örtüb, yazı gözləyir.

Qışına, yazına şeir yazıram,
Ürəyim qələmə deyir, yazıram!
İslamam, açılan səhərlərinə
Xeyir diləyirəm, xeyir yazıram.

DALĞALAR

Bir fırtına quşutək
Sizə dəydikcə külək;
Durna kimi süzərək,
Qaqqıldaşın, dalğalar,
Aşıb-daşın, dalğalar.

Siz qaynar həyatsınız,
Kükrəyən ağ atsınız.
Nəğməmə qanadsınız,
Sahili şən dalğalar,
Ey öpüşən dalğalar.

Ayın beli bükülür,
Ulduz suya tökülür.
Üfüqdə dan sökülür,
Yatın barı, dalğalar,
Ey mirvari dalğalar.

Sevgilim dənizdədir,
Ay yelkəni üzdədir.
Sular məndən gizlədir,
Axın, axın dalğalar,
Ona baxın, dalğalar.

Baş qaldırın dərindən,
Tutun şümşad əlindən.
Onun əsmər telindən
Öpün, duzlu dalğalar,
Mavi gözlü dalğalar.

Qoy bilsin o aybəniz,
Sinəmdədir o dəniz.
Sahilsiz qəlbimdə siz
Çalxalanın, dalğalar,
Dalğalanın, dalğalar!..

MEŞƏ YOLU

Meşə yolu, səhərdir...
Çətir tutmuş ağaclar.
Yol üstündə oxuyur,
Xallı-xallı turaclar.

Qırqovullar qızarır,
Cığalı xoruz kimi.
Şeh çilənmiş lalədir,
Titrəşir ulduz kimi.

Ağacdələn səslənir,
Qumru kola çağırır.
Bağrıqara böyürdən
Sənə baxıb bağırır...

Meşə yolu... bu yolun
Cığırları qolumdur.
Ay meşələr, meşələr,
Bu yol mənim yolumdur...

Ağac var ki, gövdəsi,
Yalçın qaya kimidir.
Titrəşən yarpaqları,
Min ürəyin simidir...

Meşə yolu... göy çəmən,
Çinarlar qatar-qatar.
Hər talada bir bulaq,
Hər kölgədə süfrə var.

Meşə yolu... deyirəm
Səndən bir də keçim mən.
"İsti su" aşıb-daşır,
Fincanı ver içim mən.

Yollarının qırağı,
Kəhrizdir, sərçeşmədir.
Burdan keçən gözəllər,
Qənirsizdir, seçmədir.

Meşə yolu... Gedirəm
Nur damlalar sürüşür.
Əsmə, ey səhər yeli,
Şeh çilənər, yar üşür.

Meşə yolu... Gedirəm,
Köksümə sığmır ürək.
Yollar, meşəli yollar,
Kaş sizdən bir də keçək...

QAĞAYILAR YORULANDA

Qırçın-qırçın göy ləpələr,
Nə xəfifdir, nə incədir.
Onu şərə çəkmək olmaz,
O, ən zərif düşüncədir.

Şüy balıqlar su altdadır,
Quba qazlar, qular üstə.
Qağayılar parıl-parıl,
Qanad çalır sular üstə.

Ağ ulduzlar göy Xəzərə,
Düşür gümüş damcı kimi...
...Birdən xəzri baş qaldırıb
Şaqqıldadı qamçı kimi.

Yürüş etdi boranlı qış,
Dondu bədən, dondu ilik.
Göy dənizin saf aynası
Parçalandı çilik-çilik.

Qağayılar ha istədi
Fırtınaya sinə gərə;
Dəniz döndü top dağıtmış,
Çala-çuxur bir səngərə.

Elə bu vaxt qadir insan,
Cilovlayıb dalğaları –
Dəmir dirək qaldırırdı,
Sərt sulardan göyə sarı.

Xəzri hürkdü, dəniz susdu,
Mancanaqlar çəkdikcə car.
Dənizin sərt dodaqları,
Parçalandı cadar-cadar.

Baş qaldırdı polad ada,
Qara qızıl selə döndü.
Göy Xəzərin ortasında,
Bir əbədi nur göründü.

– Sığınacaq tapdıq! – deyə,
Qağayılar birər-birər.
Dənizdə də insanlara,
Uçub pənah gətirdilər.

...İndi Xəzər bulananda,
İndi... Xəzər durulanda,
Uçub gəlir bu adaya
Qağayılar yorulanda...

MEŞƏLİ SAHİLLƏR

Nabran lövhələrindən

Mən Xəzərdən ayrılmıram,
Xəzər mavi üfüqümdür.
Pıçıldaşan ləpələrə
Yenə heyran kəsilmişəm
Neçə gündür...
Mən Xəzərdə
Tunc qayalı sahilləri,
Ağ qumsallı sahilləri,
Dalğaları,
Gecəyarı
Köhlən yallı sahilləri
Çox görmüşəm!
Mən burada gözəllərə
Firuzəyi ləpələrdən,
Sular üstə düşən zərdən
Tac hörmüşəm...
...Abşerondan yol gedirəm,
Xudat boyu Xəzər... Xəzər...
Nabranın sahilini
Əfsanəvi meşə bəzər.
Palıdlar,
cökələr,
şamlar
Burda gündüzlər, axşamlar...
Yüz illərdir bu guşələr,
Könül açan sıx meşələr,
Ləpədöyən sahillərə
budaqlardan çətir tutur.
Dolaşıram,
aram-aram.
nəfəsimi
Rayihəli ətir tutur.
Ləpələrin pıçıltısı,

Yarpaqların xışıltısı
həmahəngdir.
Deyin, necə coşmayım mən,
Gözəlliyi duya-duya?
Gözü qaynar çeşmələrdən
Doldurduğum şirin suya
Dalğalardan damla düşür.
Ləpə duzlu dodağilə,
Bulaq buzlu dodağilə
Bu sahildə bir öpüşür...
Durub dənizə baxıram;
Üfüqəcan sudur, sudur...
Dönüb meşəyə baxıram
Timsah kimi məni udur.
Nə gözəlsən, mavi dəniz!
Nə doğmasan, ana torpaq!
Sahildəki zinətə bax,
Dənizdəki nemətə bax!
İki gözəl bir duranda
dünya ona həsəd çəkir.
Heç kim nadir gözəlliyə
nə kəm baxır, nə sədd çəkir.
... Axşam düşür,
ağ çadırlar
Göbələktək ağarırlar...
Cəlb eləyir hər bir kəsi,
Gecələrin zülmətini
Bir ov kimi yora-yora;

Mingəçevir qərq eləyir
Meşələri qızıl nura.
Bura mahir bir loğmandır.
məlhəm burda, dava burda!
Bura dərdlərə dərmandır .
şəfa burda, hava burda.
İstər yaşıl meşəyə qalx,
istər qumlu sahilə düş,

Təbiətin rəssam əli
insan üçün nə çəkməmiş?..
...Ala-toran, sübh açılır,
balıqçılar dənizdədir.
Anlar ötür,
tor çəkilir,
şüy balıqlar lap üzdədir...
Büllur çeşmə, çarpaz budaq,
Ağ qağayı, qırçın ləpə
yanımızda nəğmə desin
Təbiəti öpə-öpə...
Bu meşəli sahillərdə
cərgələnir ağ binalar,
Hər kim çimsə, başı üstə
göy budaqlar çətir tutur...
Neftçi qardaş!
sən il boyu yorulmusan,
dincini al!
Bəstəkar dost!
Bu yolların himnini çal!
Rəssam bacım!
qoy firçanda
cilvələnsin mavi sular.
Bu meşəli sahillərdə
bir gözəllik timsalı var.

Günəşi çək!
Şimşəyi çək!
Yağışı çək, dolunu çək!
Nabranın əyrim-üyrüm
kələ-kötür yolunu çək!
Deyirlər ki, tovuz quşu
ayağından xəcil çəkər.
Çək! Çəkməsən,
bu yolların
düzəlməsi yüz il çəkər!..

Ey istidən təntik olan
Qoca,
cavan,
qarı,
gəlin!
Azərbaycan gözəlinin
sahilinə seyrə gəlin!..
...Bu yerlərdə dincəlirəm,
neçə vaxtdır, neçə gündür.
Mən Xəzərdən ayrılmıram,
Çünki Xəzər
mənim aydın,
mənim mavi üfüqümdür.

MÜNDƏRİCAT

Ön söz 4

ŞEİRLƏR

SƏNƏ QURBAN CANIM, AZƏRBAYCANIM!

Sənə qurban canım, Azərbaycanım! 13
Odlar vətəni 14
Vətənim var 15
Azərbaycanım 16
Bakı bir Bakıdır ki 17
Səhər 23
Qayğı 24
Zirvə yolu 25
Çiçək təranəsi 25
Heca vəznliyəm mən 27
Əbədi beşik 28
Qədim şəhərim 29
Bayram töhfəsi 30
Üçüncü hərb istəmirik! 32
Tanış gözlər 34
Rübabıyam ülviyyətin 36

MƏNİM ADİ GÜNLƏRİM

Kim ki, ürəyinə arxalanmasa 37
Mənim adi günlərim 37
Səni 40
Sənsiz 41
Sənsən 41
Pərişan olduğum anlar 42
Olaydım 42
Qurban olum mən 43
Payız gəldi 44
Bahar ümidli nazın 44
İntizar 45
Baxışlar 46
Harayçın ollam 46
Mən dənizəm 47
İtirərsən 47
Qalıbdır 48
Qəvvas 49
Gəlin düşünür... 50

Nə o dindi, nə də mən... 51
O, adi bir qız deyil... 51
Yetkinlik yaşına çatanda qızlar 52
"Qız bənövşə" 53
Ərlə-arvad arasında 53
Ərköyünlər 54
Ağ kəlağayılı qız 55
Mənə qalan bu olacaq 56
Bir dəstə açar 57
Təkərlər yollara pıçıldayırdı... 58

XAN ARAZIN SAHİLİNDƏ

Gəlmişəm 60
Naxçıvanım 60
"Qızlar bulağı" 61
"Naxçıvan yadigarı" 63
Görüş yeri 65
Gilan şəhəri haqqında ballada 67
"Gəlin daş" 68
Qonağıyam 69
Qoşa kəklik 69
Batabat bulağı 70
"Badamlı" 71
Xal-xal meşəsi 72
Əsrin ürəyi 73
Səməd gedən maşında mən 75
Qəlbin səsi 78
Önüçlər 78
Səngərsiz döyüş 80
Döyüşçünün xəyalı 81
Sərhədçinin düşüncələri 82
Xatirə 83
Bıçaq yarası 85
Onun istəyi 85
Axı necə oldu ki 87
Evciyəzə oxşadı 87
Naxçıvanın duzu, qızı, qarpızı 88

DİLİM DİLLƏR TACIDIR

Ana dilim 89
Ana səsi 91
Ana itkisi 92

Ana düşünür 93
Körpə vətəndaşa 93
Ekizlər yol ayrıcında 94
Ömür yolları 96
Neft 96
Sülhün səsi 98
Qol çəkirəm 98
Aqibətin cığırları 99
Durna qatarı 101
İnsan nəfəsi 102
Mən kövrəlmişəm 103
Yaşıdlar 103
Müəllim 104
Darülfünun pillələrində 105
Təhsil illəri 106
Yataqxana 108
Ey qapımı döyən il 109
Adsız zirvə 111
İlin son gecəsi 113
Səs 114
Oğluma 115
Yox, deməyin dolu vurdu 116
Laçın dağlarında 117
Gəlin – ağ bir qağayı 118
Şəhriyarın düşüncələri 119
İl yarası (rəvayət) 120
Ala gözlü bir taksi var 121
Zaqs müdiri 124
Qız işığı 125
Xanənişin 126
May gəlir 128
Pəltək 129

MAHNIDIR YELKƏNİM ƏZƏLDƏN MƏNİM

Bakı, sabahın xeyir! 130
Ana 130
Arzu 131
Bir könül sındırmışam 132
Pıçıldaşın ləpələr 132
Gəncliyimi gəzirəm 133
Zəriflik 134
Gəlin olar 135
Dan ulduzu, bir də mən... 135